# Təhsil iqtisadi artımın və yüksək rifahın əsas amilidir

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» təsdiq olunmuşdur. Sənədin qəbul olunmasını ölkəmizin müasir siyasi, iqtisadi, sosial-mədəni durumu, beynəlxalq mövqeyi, gələcək hədəfləri və sair şərtləndirmişdir. Hər hansı bir cəmiyyətdə sosial durum, əhalinin rifah halının vəziyyəti iqtisadi yüksəlişin səviyyəsindən asılıdır.

Dünyada iqtisadi yüksəliş problemləri ilə məşğul olan görkəmli alimlər ötən əsrin 60-cı illərinə qədər iqtisadi yüksəlişin əsas amili kimi əməyi göstərirdilərsə, XX yüzilliyn sonlarından başlayaraq təhsil iqtisadi inkişafın, cəmiyyətin inkişafının, insanların rifahının əsas amili kimi qiymətləndirilir.

Azərbaycanda ötən əsrin ortalarından başlayaraq təhsilə maraq xüsusilə yüksək səviyyədə olmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin bütün mərhələlərində təhsilə çox böyük önəm verilmişdir Minlərlə gənc keçmiş Sovet İttifaqının müxtəlif şəhərlərində tanınmış ali məktəblərə göndərilmiş və orada da, təhstl aldıqdan sonra da dövlət qayğısı ilə əhatə olunmuşlar.

Təsadüfi deyil ki, ümummilli lider müəllim peşəsini ən müqəddəs peşə adlandırmışdır. Təhsilə Heydər Əliyevin göstərdiyi qayğı və diqqət bu gün də davam edir.

Müasir dünyamızda elm və qloballaşma sahəsində ildırım sürətli inkişaf baş verir. Belə bir dövrdə təhsilin həyatla ayaqlaşması vacibdir. «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» da Azərbaycan təhsilini dünya təhsil standartları səviyyəsinə qaldırmaq məqsədi ilə qəbul olunmuş sənəddir.

Azərbaycan müəllimlərinin XIV qurultayında əsas müzakirə mövzusu da «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın həyata keçirilməsi yolları olmuşdur.

Qurultayda bildirilmişdir ki, hələ də Azərbaycanda pedaqoji fikrin mənbəyində sovet məktəbi ənənələrinin təzahürləri qalmaqdadır. Bu isə müasir dövrlə ayaqlaşmır. Bu gün ən müasir elektron texnika və texnologiyalarla təchiz edilmiş müəssisələrdə sadəcə külüng və lopatka ilə çalışan muzdlu işçilər kifayət etmir. İşçilər eyni zamanda onları əhatə edən müasir texnologiyalar, avadanlıqlar barədə müəyyən biliyə sahib olmalıdırlar. Təhsilsiz fəhlə erası başa çatmaq üzrədir.

Qurultayda eyni zamanda qeyd olunmuşdur ki, təhsil alanlar müstəqil işləməyə, informasiya əldə etməyə, əldə olunan məlumatları sərbəst şəkildə təhlil etməyə, müvafiq nəticələr çıxarmağa öyrədilməlidirlər. Ona görə də Azərbaycan təhsili də bu istiqamətdə inkişaf etməlidir.

Hazırda Azərbaycan iqtisadi inkişafın ən yüksək mərhələsinə qədəm qoyan ölkələr sırasındadır. İldən ilə, aydan aya böyüyən iqtisadiyyatımızın dünya sisteminə qovuşması təhsilimizə də yeni mahiyyət verir.

Azərbaycan müəllimlərinin XIV qurultayında «Azərbaycan Respublikasında təhsilin inkişafıı üzrə Dövlət strategiyası»nın əsas istiqamətləri geniş şəkildə iştirakçıların nəzərinə çatdırılmışdır. Strategiyanın birinci istiqamətində təhsilin bütün pillələrində kurikulumların inkişafını vacib sayılır. Təhsil sahəsi ilə az da olsa əlaqəsi olan hər bir kəsə məlumdur ki, indi məktəblərdə şagirdlər gündəlik dərslərin çoxluğu ilə hədsiz dərəcədə yüklənir. Hər gün 7 bəzən 8 saatlıq dərs şagirdləri yorur. Buna görədə təhsil Strategiyasında həftəlik və gündəlik dərs yükünün azaldılması nəzərdə tutulur ki, bu da şagirdlərin sərbəst vaxtının çox qalmasına və bu zaman məcburi deyil, sərbəst şəkildə dərsdə keçilmiş mövzular barədə fikirləşib nəticə çıxarmasına imkan yaradacaqdır.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda müəllimin məktəbdə təlim, tərbiyə sistemində əsas fiqur olduğu bir daha vurğulanır və müəllimlərin hazırlıq, ixtisas, peşəkarlıq səviyyəsinə diqqətin artırılması əsas vəzifə kimi qarşıya qoyulur. Strategiya pedaqoji kadrların hazırlanması məsələlərinə xüsusi diqqət ayrılmasını, müəllim peşəsinin ictimai nüfuzunun qaldırılmasını, pedaqoji təhsiə istedadlı gənclərin cəlb olunmasını, müəllimlərin maddi və mənəvi həvəsləndirilməsinin təkmilləşdirilməsini nəzərdə tutur. Təhsil stratengiyasında nəzərdə tutulan və Azərbaycan müəllimlərinin XIV qurultayında qeyd edilən ən mühüm yeniliklərdən biri də dövlət təhsil müəssisələrində ödənişli təhsil planının tədricən ləğv olunmasəndan ibarətdir. Məlumdur ki, ödənişli təhsilə adətən daha az bal toplamış, deməli savadı bəzən çox aşağı olan abituriyentlər qəbul olunur ki, bu gələcəkdə yüksək hazırlığa malik olmayan mütəxəssislərin yetişməsinə səbəb olur.

Hazırda, əsasən özəl təhsil müəssisələrinə 150-200 balla müəllim ixtisaslarına abuturiyent qəbul olunur. Əgər 700 bal 5 qiymət hesablanırsa 150-200 bal heç 2 qiymətinə də uyğun gəlmir. Paradoksal haldır ki, bəzi ixtisaslara keçid balı 500-dən yuxarı olduğu halda həmin abitiruyentləri hazırlayan müəllim ixtisaslarına qəbul 150-200 balla da mümkündür. Ona görə də Dövlət Strategiyasında müəlim nüfuzunun, onun maddi təminatının qaldırılması əsas məsələlərdən biri kimi qarşıya qoyulur. Sözsüz ki, müəllim nüfuzunun qaldırılması bu sahəyə axının artmasına, beləliklə ali məktəblərdə müəllim ixtisaslarına qəbul zamanı daha yüksək tələbkarlıq göstərilməsinə zəmin yaradacaqdır.

Bir sözlə «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» təhsildə zamanın tələblərinə uyğun yeni mərhələ açır. Bu mərhələnin uğurla icrası təkcə bilavasitə təhsillə əlaqədar olan şəxslərdən deyil, bütün Azərbaycan vətəndaşlarından asılıdır.

Dünyanın qabaqcıl ölkələrinin təhsil sahəsində əldə etdikləri təcrübəyə əsaslanaraq hazırlanmış Strategiyanın icrası ölkəmizi bütün sahələrdə olduğu kimi təhsil sahəsində də dünya miqyasında qabaqcıl mövqelərə çıxaracaqdır.

**Qüdrət SƏMƏDOV.**

# Yeniyetmə və gənclər arasında şahmat yarışı



Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə Şahmat məktəbində “31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü”nə həsr olunmuş oğlan və qızlar arasında şahmat üzrə rayon birinciliyi keçirilmişdir.

Birinciliyin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və Şahmat məktəbinin direktoru Kamran Cabbarov çıxış edərək “Dünya Azərbaycanlılarının Həmrəyliyi günü” münasibəti ilə yarış iştirakçılarını təbrik etmiş onlara yarışda uğurlar arzuladılar.

8-10-12-14 və 16 yaş qruplarında 40-a qədər oğlan və qız dairəvi sistem üzrə mübarizədə öz qüvvələrini sınamışlar.

Birinciliyin yekununa əsasən müvafiq yaş qrupları üzrə oğlanlar arasında Əli Kərimov, Nurlan Hümbətli, Turqay İmamov, Arzu İsmili və Mehrab Abdulkərimli, qızlar arasında isə Səfidə Rəhmanova, Səmra Abdurəhmanlı və İlahə Abdulkərimli birinci yerə çıxmışlar.

Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon Gənclər və İdaman İdarəsinin diplomları təqdim edilmişdir.

**Foto S. Umuyevindir.**

# Doğma ölkəmizdə

## Ötən ay BTC kəməri ilə 2,327.099 ton Azərbaycan nefti nəql olunub

2013-cü ilin oktyabr ayında Bakı-Tblisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə 2.327 min tondan çox Azərbaycan nefti nəql olunub. Bu da ötən ilin eyni dövru ilə müqayisədə 3,9 faiz çoxdur.

Cari ilin yanvar-noyabp aylarında isə kəmərlə 27.267.792 ton neft ötürülüb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz azdır. Ümumiyyətlə kəmər istifadəyə verilən gündən bu ilin dekabr ayının 1-ə qədər BTC ilə 232.719.606 ton neft nəql olunub.

## Azərbaycan və Çin arasında növbəti texniki iqtisadi əməkdaşlıq

Bu günlərdə Azərbaycan Respublikasının baş nazirinin müavini Abid Şərifov və Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Xun Tsyuinin görüşü olmuşdur. Görüşdə iki ölkə arasında dostluq münasibətlərinin və texniki-iqtisadi əməkdaşlığın inkişafı məqsədi ilə Çin hökumətinin Azərbaycana 30 milyon yuan (4.777.611 ABŞ dolları) məbləğində növbəti qrant yardımının ayrılması ilə bağlı texniki-iqtisadi Əməkdaşlıq Sazişi imzalanmışdır. Sayca 10-cu olan bu saziş Azərbaycana Çin istehsalı olan müxtəlif təyinatlı texnikanın gətirilməsini nəzərdə tutur.

Bu günə qədər Azərbaycan hökuməti və Çin Xalq Respublikası hökuməti arasında ümumi məbləği 245 milyon Çin yuanı (36.567.164 ABŞ dolları) olan 9 texniki-iqtisadi əməkdaşlıq sazişi imzalanmışdır.